Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında müvəffəqiyyətlə davam etdirilən davamlı inkişaf konsepsiyası dövlətimizin iqtisadi qüdrətinin, ölkəmizin sosial rifahının etibarlı qarantına çevrilərək, son onilliklərdə Azərbaycanın sürətli templərlə irəliləməsini, dünya birliyinə sıx inteqrasiya olunmasını, beynəlxalq nüfuzun möhkəmlənməsini təmin etmişdir. Bu konsepsiya çərçivəsində həyata keçirilən irimiqyaslı iqtisadi layihələrin, o cümlədən nəhəng enerji layihələrinin uğurla həyata keçirilməsi Azərbaycana təkcə regionda deyil, qlobal miqyasda mühüm mövqe qazandırmışdır. Qısa müddətdə əldə olunan nailiyyətlərdə Azərbaycan iqtisadçılarının rolu danılmazdır. 90 illik şərəfli inkişaf yolu keçmiş Azərbaycan Dövlət İqtisad Universiteti böyük elmi potensialı, müasir və keyfiyyətli təhsil proqramı ilə ölkəmizin ali təhsil ocaqları arasında mühüm yer tutaraq, beynəlxalq tələblərə cavab verən, fundamental biliklərə, geniş dünyagörüşünə və innovativ düşüncə tərzinə malik yüksək ixtisaslı iqtisadçı kadrlarının hazırlanmasına əvəzsiz töhfələr verir. Bu qocaman ali təhsil müəssisəsinin məzunları arasında uğurlu elmi tədqiqatları və praktiki fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, dünya miqyasında tanınan qabaqcıl iqtisadçılar, eləcə də respublikamızın idarəçilik sistemində mühüm mövqelər tutan dövlət xadimləri az deyil. Dünyanın nüfuzlu ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq əlaqələrinin qurulması, beynəlxalq proqramlarda yaxından iştirak etmələri Universitetin tələbə və məzunlarına nəzəri və praktik biliklərini dərinləşdirmək üçün geniş imkanlar açır.

Bir ömrə bərabər olan bu əlamətdar tarix münasibəti ilə Azərbaycan Dövlət İqtisad Universitetinin rəhbərliyini, professor-müəllim və tələbə heyətini ürəkdən təbrik edir, Azərbaycan iqtisadiyyatının davamlı inkişafında mühüm amil olan yüksək ixtisaslı kadr hazırlığında, gənclərimizin yüksək səviyyəli peşəkarlar kimi yetişməsində kollektivə yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

**Rövnəq Abdullayev**

**SOCAR-ın prezidenti**